

# Bu il pambıqçılıqda orta məhsuldarlıq ötən illə müqayisədə 8 sentnerədək artıb

**_Azərbaycanda pambıqçılığın yeni inkişaf dövrü bu istiqamətdə əsaslı tədbirlərin görüldüyü, pambıqçılığın inkişafını nəzərdə tutan Dövlət Proqramının qəbul olunduğu 2016-cı ildən başlayıb. Belə ki, 2015-ci ildə pambıq əkini sahələri 18,7 min hektar, məhsul istehsalı 35,2 min ton təşkil edib. Həmin illə müqayisədə 2016-cı ildə əkin sahələri 2,7 dəfə artırılaraq 51,4 min hektara, pambıq istehsalı isə 2,5 dəfə artaraq 89,4 min tona çatdırılıb. Müstəqillik dövründə ən çox pambıq istehsalı ötən il qeydə alınıb, ölkə üzrə sahələrdən 230,4 min ton xam pambıq yığılıb. Bu, 2015-ci ilin göstəricisindən 6,54 dəfə çoxdur._**

Xatırladaq ki, keçən il Azərbaycanda 132,5 min hektar sahədə pambıq əkilmişdi. Bu il isə pambıq əkini sahələrinin həcmi məhsuldarlığı az olan torpaqların əkin dövriyyəsindən çıxarılması hesabına 100,1 min hektaradək azaldılıb. Belə bir addım pambıqçılıqda orta məhsuldarlığı artırmağa, pambıq əkini dövriyyəsindən çıxarılan torpaqları daha səmərəli istifadə etməyə və daha yüksək göstəricilər qazanmağa imkan verib. Fikrimizin təsdiqi kimi statistik rəqəmlərə nəzər salaq. Belə ki, əgər keçən il oktyabrın 30-dək 181 min 323 ton pambıq tədarük olunmuşdusa, bu ilin eyni dövründə ölkə üzrə pambıq qəbulu məntəqələrinə 257 min 773 ton məhsul təhvil verilib. Bununla da orta məhsuldarlıq ötən illə müqayisədə 8 sentnerədək artıb və nəticədə pambıq yığımında 42,2 faiz artım qeydə alınıb.

Artıq pambıq yığımı yekun mərhələyə qədəm qoyub. Sahələrdən birinci üz yığım yekunlaşmaq üzrədir, ikinci üz yığımın isə 50 faizi başa çatıb. Bu il ən çox pambıq Saatlı (13741 hektar), Ağcabədi (10452 hektar), Biləsuvar (10257 hektar), Bərdə (10140 hektar) və Beyləqan (9706 hektar) rayonlarında əkilib. Yığılan pambığın 144185 tonu bu rayonların payına düşür.

Dövlət Statistika Komitəsinin məlumatına görə, noyabrın 6-dək ölkə üzrə pambıq qəbulu məntəqələrinə 270 min 993 ton məhsul təhvil verilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 34,7 faiz çoxdur. Keçən il noyabrın 6-dək 201 min 212 ton pambıq tədarük olunmuşdu.

Qeyd edək ki, bu il pambıq yığımına 435 kombayn cəlb olunub. Sahələrdən məhsulun 90 faizinin kombaynlar vasitəsilə yığımı nəzərdə tutulur. Kombaynlarla kütləvi pambıq yığımına sentyabrın 24-də start verilib. “Aqrolizinq” ASC-nin yerli bölmələrində 34 ehtiyat kombayn var, zərurət yaranacağı təqdirdə bu kombaynlar da yığım prosesinə cəlb olunacaq.

Məhsuldarlığın artması yuxarıda qeyd edilən səbəblə–məhsuldarlığı yüksək olan pambıq əkini sahələrinə xüsusi önəm verilməsi ilə bərabər, aqrotexniki qulluq qaydalarına düzgün riayət olunması, gübrə ilə təminatın yüksək səviyyədə həyata keçirilməsi, məhsulun sahələrdən texnika ilə itkiyə yol verilmədən yığılmasıdır.

Ötən il pambıqçılıqda respublika göstəricisindən yüksək – 29 sentner məhsuldarlıq əldə edən cəlilabadlı fermerlər bu il də sahələrdə bol məhsul yetişdiriblər. Yığım başlanandan məntəqələrə 900 tondan çox “ağ qızıl” təhvil verilib. Fermerlər bu il də əkin normasına və torpağın hazırlanmasına düzgün riayət ediblər. Sahələrdə, əsasən, Türkiyənin “Fləş fragen” və “ADN-123” yüksəkkeyfiyyətli pambıq sortları becərilir. Bu sortlar bölgənin torpaq-iqlim şəraitinə də tam uyğundur.

“MKT İstehsalat Kommersiya” MMC-nin Tərtər filialı da pambıq istehsalında yüksək nəticəyə nail olub. MMC-nin məlumatında bildirilir ki, bu il rekord məhsuldarlıq əldə edilib, 830 fermerlə müqavilə əsasında 2017 hektar sahədə pambıq becərilib ki, bu da ötən illə müqayisədə 350 hektar çoxdur. Becərmə işləri bütün aqrotexniki qaydalara əsasən aparıldığından məhsuldarlıq da keçən ilkindən yüksəkdir. Belə ki, bugünədək tarlalardan 7613,38 ton məhsul tədarük olunub. Bu isə 1 hektar üçün orta hesabla 37,74 sentner məhsuldarlıq deməkdir. Bu nəticə ötən ilin göstəricisi ilə müqayisədə 5 sentner çoxdur.

Tarlalarda məhsul yığımı hələ davam edir. Pambıq yığımına 9 kombayn, 20 traktor, 44 qoşqu, 3 yükləyici cəlb edilib. Mövsümün sonunadək orta məhsuldarlığın 38,5 sentnerə çatacağı gözlənilir. Qeyd edək ki, bu il Tərtər rayonunda 3427 hektar sahədə pambıq becərilib. Tərtər pambıqçıları hektarın orta məhsuldarlığına görə bu il də respublikanın pambıqçılıq rayonları arasında ön sıradadır. İndiyədək rayon üzrə 11 min 418,192 ton məhsul tədarük edilib. Hər hektarın orta məhsuldarlığı 33,3 sentnerdir.

Füzulidə də pambıq yığımı kampaniyası davam edir və bugünədək qəbul məntəqələrinə 1408,40 ton məhsul təhvil verilib. Rayonda bu il 800 hektar sahədə çiyid səpini həyata keçirilib. Pambıq əkinlərinin 500 hektarı “P-Aqro”MMC, 300 hektarı isə “Azərpambıq” MMC ilə müqavilə əsasında becərilib.

Füzuli pambıqçıları min bir zəhmət bahasına yetişdirdikləri məhsulun vaxtında və itkisiz yığılması üçün əzmlə çalışırlar. Pambıq yığımı həm əl əməyi, həm də pambıqyığan kombaynlar vasitəsilə həyata keçirilir. Havaların əlverişli keçməsi məhsulun tez və itkisiz yığılmasına şərait yaradır.

Ucarda da kütləvi pambıq yığımı kampaniyası davam edir və artıq sahələrdən 884 ton məhsul toplanıb. Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin məlumatına görə, cari mövsümdə 500 hektarda pambıq yetişdirilib. Ötən il hər hektardan 7 sentner məhsul götürən fermerlərin və fiziki şəxslərin indiyədək əldə etdikləri göstərici 17,9 sentnerdir. Bir sıra ərazilərdə, o cümlədən Şahlıq, Təzə Şilyan, Xələc, Lək ərazi dairələrində bu göstərici daha yüksəkdir.

Goranboy rayonu cari ilin pambıq yığımında 100 faizdən artıq nəticə göstərib. Xatırladaq ki, bu il rayonda əkilmiş 3102 hektar pambıq sahəsindən, orta məhsuldarlıq 20 sentner nəzərdə tutulmaqla, 6204 ton məhsulun təhvil verilməsi proqnozlaşdırılıb. Lakin rayonun pambıq tarlalarında olan bol məhsul gözləniləndən daha artıq nəticənin əldə ediləcəyindən xəbər verir.

***V.BAYRAMOV,***
***“Xalq qəzeti”***